

# Son məktub, sonsuz həsrət - Şəhid Məmmədov Xəyal Ağabəy oğlu

***Silah aldım əlimə,***
***Güvəndim öz gücümə.***
***Öləndə də mərd ölüm,***
***Qurban olum elimə.***

Bu sətirlər şəhid Məmmədov Xəyal Ağabəy oğlunun kursant vaxtında yazdığı şeirdən bir bənddir. Hər sözü, söhbəti vətən ilə bağlı olan qəhrəmanın cəbhəyə uzanan ömür yoluna nəzər salaq.

Məmmədov Xəyal Ağabəy oğlu 1986-cı il 18 noyabrda Şəki şəhərində anadan olub. 1993-2001-ci illərdə Şəki şəhərində 5 N-li tam orta məktəbdə təhsil alıb. Ailənin üç oğul övladından biri olub. Üç qardaş hər zaman bir - birlərini qoruyardılar. Ümumiyyətlə Xəyal fərqli xarakterə malik idi. Uşaqlıqdan hər kəsin ürəyinə yol tapmağı bacarmışdı. Xəyal böyüdükcə onun vətən sevgisi daha da qabarıq şəkildə özünü büruzə verməyə başlamışdı. O, hərbçi olmaq arzusunu 2001-2004-cü illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olmaqla reallaşdırıb. 2004-2008-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil alıb. Hərbi təhsilini aldığı müddətdə bir sıra dövlətlərdə təlimlərdə olub. 2007-ci ildə AAHM-dən Albaniyanın paytaxtı Tiranaya kurs keçmək üçün göndərilib və orada sertifikat alıb. Hər zaman göstərdiyi xidmətləri ilə orduda yüksəlməyi bacaran Xəyal 29 iyun 2019-cu ildə mayor hərbi rütbəsinə qədər yüksəlib. Dəfələrlə medallar və diplomlarla təltif edilib. "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, " Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı Xəyalın sağlığında layiq görüldüyü medallardı.

Xəyal hər zaman səngərə "evim", əsgərlərə "övladlarım" deyirdi. Çünki ömrünün daha çox zamanını övladları Aylin və Selinin deyil əsgərlərinin yanında keçirirmiş. Evinə getdiyi zaman da Röyalə xanımdan əsgərləri üçün pay hazırlanmasını istəyirmiş. 2013-cü il avqustun 19-da Xəyalla ailə quran Röyalə bir hərbçi xanımının hər çətinliyə, həsrətə, intizara sinə gəlməli olduğunu dərk edirdi.

2020-ci il 27 sentyabr. Bu tarix Azərbaycan Ordusunun tarixə qızıl hərflərlə yazdığı Zəfərin başlandığı ilk gündür. Həmin tarix yazan qəhrəmanlardan biri də mayor Xəyal Məmmədov oldu. Cəbrayılın, Hadrutun, Füzulinin, Zəngilanın və Qubadlının azad edilməsi uğrunda mübarizə aparan qəhrəmanın bu ərazilərin azadlığında böyük xidmətləri olub. Yaralı əsgərləri döyüş meydanından çıxaran bu qəhrəmanın sayəsində indi neçə - neçə oğullar həyatdadılar. Xəyal döyüşlər gedən zaman oktyabrın 7-də ailəsinə bir məktub yazır. Son sözləri həkk olunan məktubda bu sözləri yazıb və ailəsindən halallıq istəyir:

- Mən gedirəm vətəni qorumağa. Müqəddəs vəzifəmin icrasına. Ailəm və övladlarım, Allaha əmanət olun. Hər kəs haqqını halal etsin. Vətən sağ olsun.

Xəyal Məmmədov oktyabrın 20-də Qubadlı uğrunda gedən döyüşlər zamanı snayper güllələsindən açılan atəş nəticəsində şəhid olub.

Şəhid doğulub boya-başa çatdığı Şəki şəhərində torpağa tapşırılıb. Şəhadətindən sonra prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni, "Cəbrayılın azad olunmasına görə" medalı, "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib.

Oğlu ilə hər zaman qürur duyan şəhidin ata - anası övladlarının onlara əmanət etdikləri "şəhid atası" və "şəhid anası" adını qürurla daşıyırlar.

Ən böyük həsrətə tuş gələnsə şəhid xanımının ürəyidi. O həm öz həsrətini çəkir, həm də övladlarının ata həsrətini gördükcə ürəyi odlanır. Bir zaman ümidlərini bəzəyən Röyalə xanım indi həsrətini bəzəyir.

**Şəhid Xəyal**

*Sənin sevgin idi ömrümə çıraq,*
*Sən getdin taleyim oldu qaranlıq.*
*Sevgi sarayımı həsrət taladı,*
*Qəlbim dönüb oldu sanki viranlıq.*

*Mənim eşq payımdın vətən övladı,*
*Səninsə eşqinin ünvanı vətən...*
*Mən eşqim yolunda candan keçmədim,*
*Sən oldun eşqinin qoynunda bitən.*

*İndi sənsizliyə qucağın açıb,*
*Səni sənsiz sevən həyat yoldaşın.*
*Aylinin, Selinin ataları tək,*
*Bərk-bərk qucaqlayır bir məzar daşın.*

*Mən necə tab edim bu boyda dərdə?*
*Ay Xəyal, saralıb - solur Röyalən.*
*Neçə göz yaşına şahidlik edib,*
*Son sözün həkk olan sonuncu namən.*

**Manya SƏXAVƏTQIZI**